**Vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Bəxşeyiş Əsgərovun 2013-cü il oktyabrın 9-da keçirilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində 101 saylı Göygöl-Daşkəsən seçki dairəsinin 10 saylı seçki məntəqəsində müşahidəçi olmuş Subatay Xıdır oğlu Quluzadənin 12 oktyabr 2013-cü il tarixli 17 saylı müraciəti üzrə**

# RƏYİ

**Bakı şəhəri** **12 oktyabr 2013-cü il**

Mən, ekspert qrupunun üzvü Bəxşeyiş Əsgərov 2013-cü il oktyabrın 9-da keçirilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində 101 saylı Göygöl-Daşkəsən seçki dairəsinin 10 saylı seçki məntəqəsində müşahidəçi olmuş Subatay Xıdır oğlu Quluzadənin 12 oktyabr 2013-cü il tarixli 17 saylı müraciətini araşdıraraq müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112, 112-1-ci maddələrinin və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Mərkəzi Seçki Komissiyasının 12 avqust 2008-ci il tarixli Təlimatının tələblərinə uyğun tərtib edildiyindən və nəzərdə tutulan şikayətvermə müddətində göndərildiyindən araşdırmaya qəbul edilmişdir.

Araşdırma nəticəsində müraciətin Seçki Məcəlləsinin və müvafiq təlimatın aidiyyata dair tələblərinin pozulması ilə daxil olması müəyyən edildiyindən o, araşdırılması üçün aidiyyatı üzrə səlahiyyətli dairə seçki komissiyasına göndərilməlidir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci maddəsinin tələblərinə görə seçki subyektləri şikayəti müvafiq seçki komissiyasına təqdim edə bilərlər. Şikayət ilkin olaraq yuxarı seçki komissiyası tərəfindən təmin edilməzsə, dairə seçki komissiyasının qərarından və ya hərəkətindən (hərəkətsizliyindən) Mərkəzi Seçki Komissiyasına şikayət verilə bilər.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə və yuxarıda göstərilən Təlimatın 8.6-cı bəndinə uyğun olaraq şikayət və ya müraciət ona baxan ekspert qrupunun səlahiyyətlərinə aid deyilsə və aidiyyat qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının

Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında” Təlimatın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **rəyə gəldim:**

1. 2013-cü il oktyabrın 9-da keçirilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində 101 saylı Göygöl-Daşkəsən seçki dairəsinin 10 saylı seçki məntəqəsində müşahidəçi olmuş Subatay Xıdır oğlu Quluzadənin Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş 12 oktyabr 2013-cü il tarixli 17 saylı müraciəti aidiyyatı üzrə baxılması üçün həmin dairə seçki komissiyasına göndərilsin.
2. Araşdırmanın nəticəsi barədə şikayətçiyə məlumat verilməsi təmin edilsin.
3. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin), surəti müraciət etmiş şəxsə və müvafiq qurumlara göndərilsin.

**Ekspert qrupunun üzvü** **Bəxşeyiş Əsgərov**